# MELİORATORLAR PEŞƏ BAYRAMLARINI QEYD EDİRLƏR

**5 iyun Meliorasiya işçiləri günü ərəfəsində Goranboy və Kəlbəcər rayonunun meliorator kollektivlərinin rəhbərləri ilə görüşümüz oldu.**

**Goranboy Subartezian Quyuların İstismar İdarəsinin rəisi Rauf Teyyubov:**



—İqtisadiyyatın inkişafında öz yeri olan meliorasiya və su təsərrüfatı sahəsinə ümummilli liderimiz Heydər Əliyev tərəfindən göstərilən diqqət və qayğı, onun həmişəyaşar ideyaları bu gün, onun layiqli davamçısı, praqmatik dövlət başçısı, ölkə Prezidenti cənab İlham Əliyevin yorulmaz fəaliyyəti, gərgin əməyi, qətiyyət və əzmkarlığı, milli maraqları və mənəvi dəyərləri ahəngdar şəkildə uzlaşdırmağı sayəsində Müstəqil Azərbaycan Respublikası dünyanın ən sürətlə inkişaf edən, sabit və qüdrətli dövlətinə çevrilmişdir. Praqmatik ölkə başçısı cənab İlham Əliyev meliorasiya və su təsərrüfatının respublikamızın iqtisadiyyatında, regionların sosial-iqtisadi inkişafında və ölkənin ərzaq problemlərinin həllində əsas pol oynadığını nəzərə almış və bir sıra məqsədyönlü əlavə sərəncamlar imzalamış, eyni zamanda, Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günü peşə bayramı kimi daha geniş miqyasda qeyd olunması barədə 14 may 2014-cü il tarixli sərəncam vermişdir.

Bu isə su təsərrüfatı işçilərini daha da ruhlandırmış, əzmlə çalışmasına, bu çətin və şərəfli işə həvəsləndirmişdir. Hər il ənənəvi olaraq ölkə Prezidentinə minnətdar olaraq, melioratorlar öz əziz peşə bayramlarını təntənə ilə qeyd edirlər. Goranboy Subartezian Quyularının İstismarı İdarəsinin işçiləri də dövlətin bu infrastruktura ciddi münasibətini anlayaraq, gecə-gündüz səmərəli iş təşkil edir, yeni suvarma şəbəkələrinin yaradılmasında və bərpasında geniş fəallıq göstərirlər. Goranboy Subartezian Quyularının İstismarı İdarəsi 28 min hektar əkin sahələrinin suvarılmasına xidmət edir. Bu sahələrdən 23 min hektarı 839 ədəd subartezian quyuları, 5 min hektarı isə mənbəyini Yuxarı Qarabağ kanalından götürən 4 ədəd nasos stansiyası vasitəsi ilə suvarılır. Taxıl zəmilərinin, pambıq tarlalarının, həyatyanı sahələrin, yem bitkilərinin, qarğıdalı, günəbaxan, şəkər çuğundurları, bağ və bostan bitkilərinin vaxtında və səmərəli suvarılmasında suçularımızın əməyi diqqətəlayiqdir. Çünki cari ildə məhsulun bolluğu buna bariz nümunədir. İdarənin kollektivi bu il ötən ildən daha da yüksək nailiyyət əldə etmək üçün böyük həvəslə başlamışlar.

Mövcud texnikaların köməyi ilə ötürücü stansiyalar öz ahəngində işləyir. Əlavə olaraq sudan istifadəcilərlə geniş təbliğat və proflaktik tədbirlər aparılır. Belə ki, icra nümayəndələri, bələdiyyə sədrləri, sudan istifadə birliklərinin rəhbərləri ilə birgə yerlərdəki mövcud vəziyyət təhlil edilir, ayrı-ayrı sahələrdə əlaqələndirmə tədbirlərinin genişləndirilməsi və su təsərrüfatı sistemində ən vacib olan mövcud su ehtiyatlarından israfçılığa yol vermədən, qənaətlə istifadəsi təşkil edilir. İşçilərin sosial rifahının yüksəldilməsindən söhbət açan idarə rəhbəri, rayon icra hakimiyyətinin və Respublika Meliorasiya və Su Təsərrüfatı ASC rəhbərliyinin bu işdə yaxından köməyindən, nasos stansiyalarda yaradılan yüksək şəraitdən, işçilərin yüksək əhval-ruhiyyəsindən, vaxtaşırı həmkarlar təşkilatının diqqət və qayğısından geniş söhbət açdı.

Görüşün sonunda, idarə rəisi qeyd etdi ki, cari ildə kənd təsərrüfatı əkinlərinin tələbata uyğun olaraq suvarma suyu ilə təmin edilməsi, torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, mövcud sistemin modernləşdirilməsi, normal istismarının təmin edilməsi və su ehtiyatlarından səmərəli istifadə edilməsi istiqamətində işlər də daha da gücləndiriləcəkdir.

**Goranboy Suvarma Sistemləri İdarəsinin rəisi Gündüz "Tərəqqi"medalı ilə təltif olunmuş Gündüz Bağırov:**



—1996-cı ildə ümummilli lider Heydər Əliyev tərəfindən "Meliorasiya və irriqasiya haqqında"Azərbaycan Respublikasının Qanununun imzalandığı 5 iyun tarixi sonralar möhtərəm ölkə Prezidenti cənab İlham Əliyevin 24 may 2007-ci il tarixli sərəncamla "Meliorator günü" kimi qeyd edilmişdir. Həmin peşə bayramının miqyasını daha da genişləndirən, meliorasiya işçilərinin şərəfli əməyinə yüksək qiymət verən ölkə Prezidenti 5 iyunun Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günü peşə bayramı kimi daha geniş miqyasda qeyd olunması barədə 14 may 2014-cü il tarixli sərəncam imzaladı. Möhtərəm Prezidentimizin daimi diqqət və qayğısının bariz nümunəsi kimi, bu sənədin imzalanması su təsərrüfatı və meliorasiya işçiləri tərəfindən böyük sevinc və minnətdarlıq hissi ilə qarşılandı, onları öz çətin və şərəfli işlərinə daha da həvəsləndirdi.

Onu xüsusilə qeyd etmək lazımdır ki, su təsərrüfatı və meliorasiya işçilərinin əməyi də çox qiymətli və şərəflidir. Meliorasiya və su təsərrüfatı işçiləri o insanlardır ki, məhz onların əməyi ilə susuz ərazilər su ilə təmin olunur, şorlaşmış sahələr duzlardan təmizlənir, bataqlıqlar qurudulur, bəndlər və dambalar tikilməklə çayların axınları tənzimlənir və ölkə əhalisinin ekoloji cəhətdən təmiz ərzaq məhsulları ilə etibarlı təminatı üçün əlverişli şərait yaradılır. Məlumdur ki, dövlət başçısı ərzaq təhlükəsizliyinin əsas sahəsi—taxılçılığın inkişaf etdirilməsi üçün istifadə olunmayan torpaqların əkin dövriyyəsinə cəlb edilməsi barədə müvafiq orqanlara tapşırıqlar vermişdir. Məhz onun üçün ərzaq təhlükəsizliyinin təminatını və Dövlət proqramları olan aqrar bölmənin dinamik və davamlı inkişafını təmin etmək üçün suvarma və meliorasiya işçiləri var-qüvvələri ilə çalışırlar. Bu baxımdan, müasir dövrdə digər sahələr kimi, bu qədər işlərin görülməsi üçün texnikanın koməyi əvəzediməzdir. Belə ki, texnika insanların əməyini yüngülləşdirir və səmərəli edir. Geniş tarlaları suvarmaq, becərmək, yetişdirilən məhsulu yığmaq texnikanın gücü ilə başa gəlir ki, bu da insan əməyinə stimul verir. Balansda olan ekskavator-buldozer, avtonəqliyyat və digər texnikalar, təcrübəli mexanizatorların istifadəsindədir ki, bu da görüləcək işlərin yüksək səviyyədə aparılmasına imkan yaradır. Mövcud texnikaların köməyi ilə ötürücü stansiyalar daim saz vəziyyətdə saxlanılır, sağ və sol sahil divarları bərkidilir, beton üzlüklər təmir olunur, lildən və alaq otlarından təmizlənir.

**Kəlbəcər rayon Suvarma Sistemlər İdarəsinin rəisi "Tərəqqi" medalı ilə təltif olunmuş Sahib Verdiyev:**



—5 iyun "Su təsərrüfatı və meliorasiya işçiləri" günü münasibəti ilə şərəfli peşə sahibləri olan, bütün su təsərrüfatı və meliorasiya işçilərini təbrik edirik. Məhz ulu öndər Heydər Əliyevin 1996-cı ilin 24 sentyabrında imzaladığı "Meliorasiya və irriqasiya haqqında", eləcə də 1997-ci ilin 26 dekabr tarixi "Azərbaycan Respublikasının Su Məcəlləsi" qanunlarının qəbul edilməsi barədə verdiyi fərmanlar əsasında yeni inkişaf mərhələsi başlandı. Bu qanunlar əsasında qəbul edilmiş bir sıra hüquqi-normativ sənədlər respublika iqtisadiyyatının ən vacib sahələrindən olan meliorasiya və su təsərrüfatının davamlı inkişafına stimul verdi.

Bu gün ölkəmizdə bu sahəyə diqqət və qayğı praqmatik dövlət başçısı, möhtərəm Prezdentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, bir çox irimiqyaslı layihələr həyata keçirilir, infrastruktur yeniləşir. Kəlbəcər rayonunda da əhalinin ərzaq təminatını yüksəltmək üçün, torpaqlara həyat verən su təminatının təşkili vacib məsələlərdəndir. Bu çətin və şərəfli işləri müvəffəqiyyətlə icra edən Kəlbəcər Suvarma Sistemləri İdarəsinin kollektivi gecə-gündüz sahələrdə olur, bol məhsul götürülməsi üçün əzmlə çalışır. Ölkə Prezidentinin "Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" kimi qərarının icrası kollektivin əsas hədəfi olmaqla bütün mövcud imkanlardan istifadə olunmuş, bol məhsul əldə olunmaqdadır. Ərzaq təhlükəsizliyinin əsas sahəsi—taxılçılığın inkişaf etdirilməsi, torpağın, sözün əsl mənasında, cana gətirilməsi kollektivin prioritet məsələlərindəndir. Məhz bu baxımdan ərzaq təhlükəsizliyinin təminatını və Dövlət proqramları olan aqrar bölmənin dinamik və davamlı inkişafını təmin etmək üçün idarənin işçiləri, hətta, gecəni də sahələrdə keçirirlər.

Müasir dövrdə digər sahələr kimi, bu qədər işlərin görülməsi üçün texnikanın köməyi əvəzediməzdir. Belə ki, texnika insanların əməyini yüngülləşdirir və səmərəli edir. Geniş tarlaları suvarmaq, becərmək, yetişdirilən məhsulu yığmaq texnikanın gücü ilə başa gəlir ki, bu da insan əməyinə stimul verir. Yuxarıda göstərilən bu işlərin görülməsi üçün suvarma kanalları, stasionar stansiyalar, nasos aqreqatları və qurğular saz vəziyyətdə saxlanılır və dinamik fəaliyyətdədir. Torpaqların itkisiz suvarılması üçün kanallarda əvvəlcədən lildəntəmizləmə, sahilbərkitmə və selə qarşı torpaq işləri, kol-kosdan təmizləmə işləri görülmüşdür ki, bu gün suyun maneəsiz təchizatı göz qabağındadır. Eyni zamanda, yararsız boru kəmərləri təmir olunmuş, işlək vəziyyətə gətirilmişdir.

Onu xüsusilə demək yerinə düşərdi ki, rayon icra hakimiyyəti və Respublika Meliorasiya və Su Təsərrüfatı ASC rəhbərliyi bu işdə bizə həmişə yaxından dəstək olur. Melioratorlar bu diqqət və qayğının müqabilində daha da əzmlə çalışır, mövcud su mənbələrindən daha səmərəli istifadə etməklə hər bir sahədə bol məhsulun yetişdirilməsini ən ümdə vəzifə hesab edirlər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

Respublika.- 2018.-3 iyun.-S.4